

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ qapısı

**Təsisçi:** *Nəxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 201 (23.112)

*21 oktyabr 2018-ci il, bazar*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Naxçıvanda "Arıçılıq məhsulları – bal festivalı" keçirilib

Oktyabrın 20-də "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində üçüncü "Arıçılıq məhsulları – bal festivalı" keçirilmişdir.

Tədbirin aparıcıları xalqımızın arıçılıq və bal istehsalı ilə hələ eramızdan əvvəlki dövrlərdən məşğul olması barədə məlumat vermiş, arıçılıqla bağlı yaranan folklor nümunələrini, atalar sözlərini, zərbi-məsəlləri festival iştirakçılarının diqqətinə çatdırmışlar.

Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsinin dekanı, biologiya üzrə fəlsəfə doktoru, dosent Elsevər Əsədov çıxış edərək demişdir ki, Naxçıvan Muxtar Respublikasının coğrafi vəziyyəti, iqlimi və bitki örtüyü burada kənd təsərrüfatının, xüsusilə də arıçılığın inkişafına geniş imkanlar açır. Bu səbəbdən də arıçılığın inkişafı diqqətdə saxlanılır. Arıçılığın əhəmiyyəti təkcə qiymətli arı məhsullarının istehsalı ilə bitmir, eyni zamanda əhalinin məşğulluğunun, kənd təsərrüfatı bitkilərinin məhsuldarlığının artırılmasında və toxumların keyfiyyətinin yüksəldilməsində xüsusi rol oynayır. Arıçılıq kənd təsərrüfatının ən maraqlı, gəlir gətirən, qida və müalicəvi baxımdan xeyirli təsərrüfat sahələrindən biridir. Digər təsərrüfat sahələri ilə müqayisədə arı təsərrüfatının yaradılmasına lazım olan xərc az, qoyulmuş xərcin qaytarılma müddəti qısa, təsərrüfatın inkişaf imkanları daha genişdir.









Qeyd olunmuşdur ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 18 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı", arıçılıq sahəsinə güzəştli kreditlərin və arıçılıq avadanlıqlarının lizinq yolu ilə sahibkarlara verilməsi, arıçıların xəstəliklərə qarşı müxtəlif dərman preparatları ilə pulsuz təminatı, arıçılıq avadanlıqlarının istehsalı və satışının təşkil edilməsi, istehsal olunmuş məhsulların satışı üçün əlverişli şəraitin yaradılması muxtar respublikada arıçılığın inkişafı üçün geniş imkanlar açır. Hazırda muxtar respublikada arıçılıqla məşğul olanların sayı günü-gündən artır. Arı məhsullarının istehsalı və satışı bazar iqtisadiyyatına uyğun olaraq formalaşmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov festivalda iştirak etmiş, Naxçıvan balının sərgi-satışı ilə tanış olmuşdur.

Məlumat verilmişdir ki, festivala muxtar respublikanın bütün rayonlarından olan 288 arıçı tərəfindən 12 min 985 kiloqram süzmə, 3342 kiloqram şan bal, arı südü, çiçək tozu, o cümlədən arı məhsullarından hazırlanmış tibbi ekstraktlar, mum kremləri, bal istehsalında xüsusi əhəmiyyətə malik olan dərman bitkiləri və digər məhsullar çıxarılmışdı. Festivala çıxarılan məhsullar xüsusi taralarda qablaşdırılmışdı. Həmçinin baldan hazırlanan müxtəlif şirniyyatlar, araqlar, şərablar, doşab və şərbətlər də festival iştirakçılarına təklif edilirdi.

Festivalda, eyni zamanda müxtəlif arıçılıq ləvazimatları nümayiş olunmuşdur. Festival arıçılar arasında təcrübə mübadiləsinin həyata keçirilməsinə, onların bu sahədə əldə olunan yeniliklərlə tanış olmalarına şərait yaradır. Arıçılıqla bağlı çap olunmuş kitab və bukletlər bu sahədə mühüm əhəmiyyətə malikdir. Kitab və bukletlər arıçılara paylanmışdır.

Qeyd olunmuşdur ki, Günnüt, Havuş, Tənənəm, Şahbulaq, Tivi, Buzqov, Şurud, Ağbulaq və digər kəndlərdə istehsal olunan bal dadı, qoxusu, görünüşü və müalicəvi əhəmiyyəti ilə seçilir. Muxtar respublikanın florası nektarlı bitkilərlə zəngindir. Azərbaycanda mövcud olan 400 növ balverən bitkinin əksəriyyəti muxtar respublikanın ərazisində bitir. Naxçıvanın coğrafi iqlim şəraiti isə balverən bitkilərin müxtəlif vaxtlarda çiçəkləməsinə səbəb olur. Bütün bunlar da arıçılığın inkişafı üçün geniş imkanlar açır. Bunun nəticəsidir ki, muxtar respublikada arı ailələrinin sayı artaraq 71 mini ötmüşdür.

Günnüt kəndindən olan arıçı Fikrət Məmmədov demişdir ki, uzun müddətdir, Günnüt kəndinin həsrətində idik. Kəndimizin işğaldan azad olunması sakinlərin böyük sevincinə səbəb oldu. Bu gün Günnüt kəndində təsərrüfatla məşğul oluruq, arı ailələri saxlayırıq. Bundan sonra da kəndimizin təbii imkanlarından geniş istifadə edəcəyik.

Arıçılardan Məhərrəm Eyvazov, Əsəd Hacıyev, Etibar Məmmədov, Abdulla Sadiqov, Baba Babayev, Azər Şahverdiyev, Yaşar Həbibov və Tahirə Zamanova arıçılığın inkişafı üçün yaradılan şəraitə görə Ali Məclisin Sədrinə minnətdarlıq etmişlər.

Bu gün muxtar respublikada qədim arıçılıq ənənələrinin yaşadılmasına xüsusi diqqət yetirilir. Arıçılığın inkişafında Naxçıvan təcrübəsinin tətbiqi diqqətdə saxlanılır. Culfa rayonunun Gülüstan kənd sakini, arıçı İlqar Hüseynov arı ailələrinin becərilməsində qədim metodlardan geniş istifadə edir.

Arıçı İlqar Hüseynov Ali Məclisin Sədrinə minnətdarlıq edərək demişdir ki, təsərrüfatının inkişafı üçün hər cür şərait yaradılıb. Arı ailələrinin köçürülməsi, xüsusilə dağ və sərhəd kəndlərində arı ailələrinin saxlanılması üçün bütün imkanlar mövcuddur. Torpaqlarımız etibarlı müdafiə olunur, qorunur. Bu imkanlardan istifadə edərək keyfiyyətli məhsul istehsalına nail oluruq. Bu il öz təsərrüfatımda istehsal etdiyim 55 kiloqram balı hərbi hissəyə təhvil vermişəm. Bu həmrəylik, birlik və göstərilən qayğı bizi daha da ruhlandırır.

Ali Məclisin Sədri arıçılara təşəkkür etmiş, arıçılığın inkişafında Naxçıvan təcrübəsinin tətbiqinin əhəmiyyətini vurğulamış, maarifləndirmə işlərinin aparılması, muxtar respublikada arıçılığın inkişafına bundan sonra da dəstək verilməsi, arıçılıq təsərrüfatlarının genişləndirilməsi üçün subsidiyaların ödənilməsi və tibdə arı məhsullarından istifadənin genişləndirilməsi barədə tapşırıqlar vermişdir.

Festival bu gün də davam edəcək, arıçılar arasında "Ən yaxşı arıçılıq məhsulları – bal" nominasiyası üzrə müsabiqə ilə yekunlaşacaq.

Festivalda Naxçıvan Dövlət Filarmoniyasının Mahnı və Rəqs Ansamblı rəngarəng konsert proqramı təqdim etmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**



*Mütəxəssis sözü*

# Bal və digər arıçılıq məhsulları insan sağlamlığı üçün əvəzsizdir

***Əhalinin ekoloji cəhətdən saf təbii qidaya həmişə böyük ehtiyacı var. Arıçılıq isə təbii qida istehsalı üçün ən perspektivli sahə hesab edilir. Bu baxımdan arıçılıq iqtisadiyyatın ən vacib sahələrindən biridir. Elə ona görə də muxtar respublikada bu sahənin inkişafı daim diqqət mərkəzində saxlanılır. Arı məhsulları insan bədəni tərəfindən 100 faiz mənimsənilir. Çünki bu məhsullar 99 faiz insan qanının plazmasına yaxındır. Arıçılıq məhsullarının istehsalı yalnız təbii yolla mümkündür. Arıçılıq, əslində, biznes sahəsi kimi də çox gəlirli sahədir. Arı ailəsinin bizə verdiyi əsas məhsullar bal, çiçək tozu, arı südü, vərəmum, mum və arı zəhəridir. Bütün bu məhsullar bir-birindən tərkibinə və müalicəvi xüsusiyyətlərinə görə fərqlənir. Ümumiyyətlə, arının bütün məhsulları bioloji-aktiv maddələrlə zəngin və qiymətlidir.***

***Bal***

Arılar balı müxtəlif çiçəklərin nektarından – şirəsindən hazırlayır. Onlar əvvəlcə çiçək şirəsini mədəsinə toplayır, sonra pətəkdəki yuvalara boşaldırlar. Daha sonra isə mədə şirəsi ilə qarışmış nektarı qanadları ilə ventilyasiya yaradaraq qurudub qatılaşdırırlar. Qatılaşmış nektar bala çevrildikdə, yəni bal tam yetişdikdə pətəyin ağzını mumla suvayırlar.



Bal kimyəvi tərkibinə görə vitaminlər, mineral maddələr, karbohidratlar, zülallar, hormonlarla zəngindir. Onun tərkibində yetmişdən artıq maddə cəmlənir. Adətən, 18-20 faiz su, 80 faizdən artıq karbohidrat olur. 80 faizin içində 40 faiz fruktoza, 30 faiz qlükoza, 4 faiz qamış şəkəri, nişasta və sair şəkərlərlə yanaşı, maqnezium, potasium, kalsium, natrium-xlor, kükürd, dəmir, sink, selenium, mis, xrom və fosfor kimi minerallar və mineral duzlar, bir çox üzvi turşular, lumu cövhəri, alma, kərə yağı, ənbər, süd və digər turşular vardır.

Balın xarlanması və eyni zamanda min illərlə xarab olmadan qala bilməsi normal haldır. Xarlanan bal heç də öz keyfiyyətini itirmir.

Təbii bal ayrı-ayrı bitkilərin çiçəyindən arılar vasitəsilə çəkildiyinə görə onda orqanizm üçün ən zəruri qida maddələri olur. Odur ki, bal yeməklə bədəni çatışmayan bir sıra bioloji aktiv maddələrlə təmin etmək mümkündür. Ən yaxşı bal saf və nisbətən qatı halda olan baldır. Bal infeksiyalara, mikroblara qarşı təsirlidir və yaraların müalicəsində sağalma prosesini sürətləndirir.

Təbii bal insanlar tərəfindən əvəzolunmaz yeyinti məhsulu kimi istifadə olunur. Tərkibindəki qlükoza və fruktozaya görə bal orqanizm üçün enerji mənbəyi rolunu oynayır. 100 qram balın tərkibində 300 kalori enerji mövcuddur. Yəni bir qaşıq bal insan orqanizminə 60 kalori qazandırır. Bu mənada, bal enerji mənbəyi kimi başqa qida məhsullarından qat-qat üstündür.

İnsan gündə 30-40 qram, ayda ən azı bir kiloqram bal yeməlidir. Yadda saxlamaq lazımdır ki, bütün arıçılıq məhsulları yalnız ağız suyu ilə həzm olunur. Həmin məhsulları adi nabat kimi tam həll olana qədər ağızda saxlamaq lazımdır. Həm də mümkün qədər çox saxlamaq lazımdır ki, həzm ağızın selikli qişasında getsin. Onu tez udmaq, ələlxüsus də üstündən su içmək müalicəvi məhsulu boş yerə sərf etmək deməkdir.

Tərkibi insan orqanizmi üçün faydalı maddələrlə zəngin olan təbii arı balı ən həssas mədə tərəfindən də asanlıqla həzm edilir. Bal daxili orqanları sağlamlaşdırır, insana enerji verir, iradəni möhkəmləndirir, ovqatı yaxşılaşdırır, bədəni gümrahlaşdırır, ömrü uzadır.

Xalq təbabətində təbii baldan körpə uşaqların inkişafı üçün geniş istifadə olunur. Ana südü ilə bəslənən körpələrə süd, bal və kərə yağı qarışığı verilir. Distrofiya və dispepsiya xəstəliklərinə qarşı uşaqlara müalicə və profilaktika üçün tərkibində 3 faiz bal olan süd və düyü həlimi qarışığı tətbiq edilir. Ümumiyyətlə, uşaq orqanizminin inkişafı üçün təbii bal əvəzolunmaz qidadır.

Həkimlər sübut ediblər ki, distillə edilmiş su ilə düzəldilmiş bal şərbəti böyrək, sidik kisəsi daşı xəstəliklərindən əziyyət çəkən insanlar üçün olduqca faydalıdır. Üzdə olan sızanaqları da bal sürtməklə yox etmək olar. Bal şərbəti ilə qarqara etmək isə ağızda olan yaraları sağaldır və boğaz ağrısına müsbət təsir göstərir. Həmçinin qan dövranını yaxşılaşdırır, ürək döyüntüsünü tənzimləyir, mədə köpünün qarşısını alır. Mədə ağrısı, mədə xorası, qəbizlik, sancılar zamanı istifadə edilən bu nemət qaraciyər xəstələri üçün də faydalıdır. Şəkər xəstəliyindən əziyyət çəkənlərin və yaşlı adamların gündə 30 qram bal yeməsi də məsləhətdir.

***Çiçək tozu***

Çiçək tozu və gülləm arının ən dəyərli



məhsullarındandır. Çiçək tozu baldan 12, gülləm isə 20 dəfə güclü hesab edilir. Çiçək tozu həşəratlarla tozlanan bitkilərin erkək elementinin arı fermentləri ilə zənginləşdirilmiş çiçək tozcuqlarıdır. O vitaminlər və natural hormonlar xəzinəsidir. Çiçək tozunun fermentləri hüceyrələrdə gedən mübadilə proseslərini təmin edir, onun bioloji aktivliyini, yəni hüceyrənin bölünmə və bərpa qabiliyyətini artırır. Çiçək tozu orqanizmin virus və bakteriyalara qarşı müqavimətini də gücləndirir. Zehin və bədən yorğunluqlarını aradan qaldırır, uşaqların sağlam inkişafına kömək edir, əsəbilik hallarını götürür, düşünmə və iş qabiliyyətini artırır.

Çiçək tozundan və baldan hazırlanan qarışıq uşaqlar üçün çox faydalıdır. Bunun üçün çiçək tozunun bir kiloqramını bir kiloqram balla qarışdırıb məhlul hazırlamaq lazımdır. Çiçək tozu toz halına düşüncə əzilməli, bundan sonra bal ilə qarışdırıb hər gün acqarına 1 qaşıq dilin üstünə qoyulmalıdır. Çiçək tozu qarışığını yedikdən sonra su içmək məsləhət deyil, ümumiyyətlə, 15-20 dəqiqə ərzində istənilən maye qəbulundan imtina etmək lazımdır. Müalicə kursu bir ay davam etdirilməli, bir ay fasilə verilməklə il ərzində 4-5 kurs aparılmalıdır.



***Arı südü***



Arı südü insan orqanizmi üçün vacib olan əvəzedilməz bioloji aktiv maddələrlə zəngin qida məhsuludur. Onun tərkibində 65 faiz su, 14-18 faiz zülal, 9-18 faiz karbohidrat, həmçinin A, D, C1, B1, B2, B3, B6, B12, E, PP vitaminləri vardır.

Arı südü ürək-damar, mədə-bağırsaq, vərəm, bruselyoz, artrit və bu kimi xəstəliklərin müalicəsində istifadə edilir. Arı südünün tərkibində asetilxalir maddəsi vardır ki, onun təsiri nəticəsində qan damarları genişlənir. Ona görə də arı südündən hipertoniya (yüksək qan təzyiqi) xəstəliyi zamanı da istifadə edilir. Kliniki müşahidələr göstərir ki, arı südü qan təzyiqi xəstəliklərində ümumi nizamlayıcı rolunu oynayır. Yəni aşağı təzyiqin yuxarı, yuxarı təzyiqin isə aşağı enməsinə şərait yaradır. Arı südü, eyni zamanda böyrəküstü vəzilərin fəaliyyətini də normallaşdırır. Antivirus, antibakterial, biostimullaşdırıcı xüsusiyyətlərə malik olan arı südü yaddaşı artırır, qocalmanıləngidir, qan təzyiqini normallaşdırır, ürəyin funksiyasını və qan dövranını, həzm orqanlarının işini yaxşılaşdırır.

Arı südü immuniteti artırır. Ondan ağız boşluğu, tənəffüs yolu, mədə-bağırsaq, ağciyər, astma-bronxit, qrip, qaymarit, allergiya, dəri xəstəliklərində və yaraların sağaldılmasında da istifadə olunur.

Muxtar respublikamızda arı ailələrinin artırılması, eləcə də bu sahədə məhsuldarlığın yüksəldilməsi üçün arıçı sahibkarlara dövlət səviyyəsində qayğı göstərilir. Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin əməkdaşları tərəfindən sahibkarlarla keçirilən maarifləndirici müşavirələr, arı xəstəliklərinin müalicəsi üçün hər il dövlət tərəfindən arıçılara pulsuz dərman preparatlarının verilməsi, arıçı sahibkarların istehsal etdikləri məhsulların sərgi-satışı üçün Naxçıvan şəhərində ənənəvi "Arıçılıq məhsulları – bal festivalı"nın keçirilməsi, arıçılara balsüzən aqreqatların, arı pətəklərinin və digər avadanlıqların lizinq yolu ilə verilməsi bu sahənin inkişafına göstərilən dövlət qayğısının nümunələridir. Yaradılan şərait, arıçılara göstərilən dövlət qayğısı bu sahənin ilbəil inkişafına, muxtar respublikamızda arıçılıq məhsullarının hər ötən il daha da artmasına səbəb olub. Bu inkişaf və məhsuldarlıqda müşahidə olunan artım növbəti "Arıçılıq məhsulları – bal festivalı"nda da özünü göstərdi.

**Əyyub ABDULLAYEV**
***Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Heyvandarlıq, damazlıq işi və otlaqlar şöbəsinin müdiri***

## Moris Meterlinkin "Arıların həyatı" romanından sətirlər

Nobel mükafatı laureatı kimi dünya ədəbiyyatının ən görkəmli nümayəndələrindən biri olan belçikalı şair-dramaturq, esseçi, filosof Moris Meterlinkin (1862-1949) məşhur əsərlərindən biri də yeddi hissədən ibarət "Arıların həyatı" romanıdır. Bu əsərin əhəmiyyəti ondadır ki, müəllif romanı iyirmiillik arıçılıq haqqında apardığı müşahidələr əsasında, arı yuvasının birillik tarixçəsini izləməklə yazıb. Görkəmli yazıçının zəngin həyat müşahidələri əsasında yazdığı əsərdə təbiətin ən zəhmətsevər, möcüzəvi məxluqu olan arılara, onların maraqlı yaşayışlarının şüurlu ali məxluq olan insanların həyatı ilə müqayisəli şəkildə təsvir olunur.

"Arıların həyatı" romanı Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin gənc nəsildə vətənpərvərliyin, tarixə, milli kökə bağlılığın formalaşdırılmasına xidmət edən "Oxunması zəruri olan kitablar haqqında" 2017-ci il 28 avqust tarixli Sərəncamı ilə təsdiq edilən Siyahıya daxil edilib. Romandan müəyyən sətirləri oxucularımızın diqqətinə çatdırırıq:

Arılar cəmiyyət halında yaşayır, öz qanunları ilə idarə olunur.

* * *

Altıguşəli hücrə arı sənətinin şedevridir. Onlar, sözün əsl mənasında, mükəmməl bir əsər yaradıblar və əgər dünyanın bütün dahiləri yığışsaydı, burda nəyisə dəyişdirməyə lüzum görməzdilər. Arıların öz sahəsində yaratdığı şeyi insan belə yarada bilməyib. Əgər başqa bir dünyadan gəlib bizdən məntiqi mükəmməl şəkildə təcəssüm etdirən bir predmet göstərməyi xahiş etsəydilər, onlara arı pətəyinin bir hissəsini göstərmək olardı.

* * *

Ana arı – məlikə öz yeməyini özü götürmür. Onu cəfakeş işçi arılar körpə uşaq kimi yemləyirlər. Ana arı sürətlə yumurta qoyur və bunu görən işçi arılar yeni hücrələr tikməyə tələsirlər.

* * *

Bir az tüstü püskürtməklə arının sancmasının qarşısını almaq olur. Tüstü püskürdərkən arı elə bilir ki, təknəyə heç kəs hücum etmir, bu, sadəcə olaraq təbii hadisədir, fəlakətdir və ona tabe olmaq lazımdır. Belə məqamda onları hissiyyatları aldatdığı üçün öz gələcəklərini xilas etmək naminə təknədəki materialları götürüb bal ehtiyatı toplamağa doğru tələsirlər.

* * *

Arı qarışqadan da ictimai məxluqdur. Arı cəmiyyəti təşəkkül tapıb inkişaf etdikcə onun hər bir üzvünün fərdi həyat maraqları ümumi maraqlara qurban verilir. Ancaq nəqisliklər var. Məsələn, yaşlı işçi arılar sürfələrin ətrafında dolaşıb onları yeməyə çalışır. Ana arı var gücüylə onu qorumağa çalışır.

## Arıçılıqla bağlı folklor nümunələrimiz

*Arını duman, insanı iman yola gətirər.*

* * *

*Arının şahı şah olsa, balı Bağdaddan gələr.*

* * *

*Arının şan çəkməsi memarı utandırar.*

* * *

*Arı yuvasına çöp uzatmazlar.*

* * *

*Arı şirəyə dolanar.*

* * *

*Arı yalançını sancar.*

* * *

*Arıdan çox zəhmətsevər tapmazsan.*

* * *

*Arının cəfasını çəkməyən səfasını da görməz.*

* * *

*Harda çiçək varsa, orda bal da olar.*

* * *

*Balsız şanda arı durmaz.*

* * *

*Balı dibindən, yağı üzündən.*

* * *

*Bal tutan barmaq yalar.*

* * *

*Bal verən çiçəyi arı tanıyar.*

* * *

*Bala baldan şirindir.*

* * *

*Eyni güldən ilan zəhər, arı bal çəkər.*

* * *

*Bal barmaqda, yağ dırnaqda.*

* * *

*Bal da yesə dirilməz.*

* * *

*Bal tutanda arısı Şamdan gələr.*

## Naxçıvanda “Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev multikulturalizmin Azərbaycan modeli haqqında” kitabın təqdimatı keçirilib




***Oktyabrın 20-də Naxçıvan Şəhər İcra Hakimiyyətinin iclas zalında “Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev multikulturalizmin Azərbaycan modeli haqqında” kitabın təqdimatı keçirilib.***

Tədbiri Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Agentliyinin direktoru Vüqar Babayev açıb. Bildirib ki, Azərbaycan, rus və ingilis dillərində nəşr edilən kitabda Prezident cənab İlham Əliyevin 2003-cü ildən bəri müsahibə və çıxışlarında multikulturalizmin Azərbaycan modeli haqqında dəyərli fikirləri toplanıb. Bu qiymətli nəşrdə dövlətimizin başçısının təşəbbüsü və rəhbərliyi ilə ölkəmizin multikulturalizmin, o cümlədən mədəniyyətlərarası və dinlərarası dialoqun inkişafı sahəsində həyata keçirdiyi layihələrdən həm ölkə daxilində, həm də beynəlxalq miqyasda bu sahədə əldə edilən nailiyyətlərdən danışılır.

Tədbirdə çıxış edən Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Himayəçilik Şurasının sədri, kitabın tərtibçisi, akademik Kamal Abdulla bildirib ki, Azərbaycanda multikulturalizmin çox ciddi tarixi, coğrafi, ideoloji, siyasi əsasları var. Ulu öndər Heydər Əliyevin xalqımız qarşısındakı xidmətlərindən biri də ölkəmizdə multikulturalizmin inkişafına böyük qayğı göstərməsi idi. Bu siyasəti bu gün Prezident cənab İlham Əliyev əzmlə davam etdirir və multikulturalizmi dövlət siyasəti səviyyəsinə çatdırıb. Dövlət başçısının rəhbərliyi ilə aparılan multikulturalizm siyasəti ölkə daxilində inteqrasiya proseslərini sürətləndirir. Beynəlxalq müstəvidə isə bu siyasət mədəniyyətlərarası və dinlərarası dialoqun inkişafına güclü təsir göstərir.



Kamal Abdulla tədbir iştirakçılarının diqqətinə çatdırıb ki, ölkə başçısının söylədiyi kimi, multikulturalizm dövlət siyasətidir. Dövlətimizin başçısının nəşrdə toplanmış hər bir fikrində bunu görür, ölkəmizə, xalqımıza, dünyadakı bütün sülhsevər insanlara məhəbbət və sevgi hiss edilir. Azərbaycan Prezidentinin multikulturalizm barədə fikirləri, göstərişləri onun 2016-cı ildə elan etdiyi “Multikulturalizm İli” başa çatdıqdan sonra da davam edir. Biz hər gün bunun şahidi oluruq. Bu kitabın davamı olacaq və dövlətimizin başçısının Azərbaycanın multikulturalizm modeli, dünyada multikultural əhval-ruhiyyənin bərqərar olması üçün görüləcək işlər barədə dedikləri nəşrin növbəti cildlərində dərc ediləcək. Kitabın digər dillərə tərcüməsi də nəzərdə tutulur.

Kamal Abdulla Naxçıvanda da multikultural dəyərlərə hörmət və ehtiramla yanaşıldığını vurğulayıb və bu tədbirin yüksək səviyyədə təşkili üçün muxtar respublika rəhbərinə dərin minnətdarlığını bildirib.

Tədbirdə çıxış edən akademik Muxtar İmanlı diqqətə çatdırıb ki, Azərbaycanda həyata keçirilən siyasətin mühüm bir istiqaməti kimi təqdim olunan kitabda multikulturalizmin bir sıra nəzəri məsələləri, Azərbaycan multikulturalizm modelinin xüsusiyyətləri öz əksini tapıb.

Muxtar İmanlı Azərbaycan Prezidentinin multikulturalizmlə bağlı fikirlərinin toplu halında, üç dildə dərc edilməsinin çox önəmli olduğunu vurğulayaraq bildirib ki, Azərbaycan multikulturalizmi bu gün dünyada yüksək qiymətləndirilir və nümunə kimi göstərilir. Dövlətimizin başçısının qeyd etdiyi kimi, multikulturalizmin alternativi yoxdur. Bu, müharibə və münaqişələrlə üzləşən dünyanı xilas edəcək yeganə yanaşmadır.

Bildirilib ki, bu gün beynəlxalq aləmdə müharibələrin, münaqişələrin, qanlı toqquşmaların və digər problemlərin yaşandığı bir zamanda Azərbaycan sanki dünyada bir oazisdir. Ölkədə əmin-amanlıq, sabitlik, yüksək multikultural mühit hökm sürür. Bu isə Prezident cənab İlham Əliyevin bu istiqamətdə apardığı siyasətin, dinindən, dilindən və milli mənsubiyyətindən asılı olmayaraq, hər bir vətəndaşımıza bərabər münasibətinin nəticəsidir.

Vurğulanıb ki, bütün dünyada Azərbaycanın multikulturalizm və tolerantlıq sahəsindəki təcrübəsinə artan maraq bəzi xarici siyasətçilərin dedikləri kimi, onun neftlə, təbii qazla bərabər, tolerantlığı da ixrac edən dövlət imicini qazanmasına səbəb olub. Azərbaycan dövlətinin həyata keçirdiyi tolerantlıq siyasəti ölkəmizdə yaşayan etnik və dini icmalar arasında dostluğun və qardaşlığın daha da möhkəmlənməsinə zəmin yaradır.

Qeyd edək ki, adıçəkilən nəşrin Naxçıvan Dövlət Universitetində də təqdimat mərasimi keçirilib, multikulturalizmlə bağlı yeni nəşrlər ali təhsil ocağının kitabxanasına hədiyyə olunub.

✍ **Muxtar MƏMMƏDOV**

## Naxçıvanın tarixi abidələri, mədəniyyət, təhsil müəssisələri türkiyəli jurnalistlərin marağına səbəb olub



*Dünən Türkiyənin Şərqi Anadolu Jurnalistləri Federasiyasının üzvü olan media qurumlarının nümayəndələri Naxçıvan Muxtar Respublikasına gəliblər. Qonaqlar əvvəlcə Xan Sarayı Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksi ilə tanış olublar.*

Açıq səma altında nümayiş etdirilən daş abidələr türkiyəli media nümayəndələrinin böyük marağına səbəb olub. Burada məlumat verilib ki, Açıq Səma Altında Muzey Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2002-ci il 11 iyun tarixli Sərəncamına əsasən Naxçıvan şəhərindəki Əcəmi seyrəngahında yaradılıb.

Möminə xatın türbəsi ilə tanışlıq zamanı bildirilib ki, bu abidə tanınmış memar Əcəmi Əbubəkr oğlu Naxçıvani tərəfindən 1186-cı ildə tikilib. O, Naxçıvanda yaranan Əcəmi memarlıq məktəbinin şah əsəridir.

Xan sarayında olarkən qonaqların diqqətinə çatdırılıb ki, bu muzey Ehsan xanın atası Kalbalı xan Kəngərli tərəfindən 1760-cı illərdə tikdirilib.

Qonaqlar Naxçıvan şəhərindəki “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksi ilə tanışlıq zamanı burada keçirilən üçüncü “Arıçılıq məhsulları – bal festivalı”nda da iştirak ediblər. Dad-tamı, yüksək keyfiyyəti ilə seçilən Naxçıvan balı, muxtar respublikanın müxtəlif arıçılıq təsərrüfatlarının istehsal etdiyi, insan orqanizmi üçün əvəzsiz faydası olan digər arıçılıq məhsulları media nümayəndələrinin diqqətini cəlb edib.

Nuh Peyğəmbərin türbəsində qeyd olunub ki, bu abidənin qədim dövrlərdən mövcud olduğu elmi araşdırmalarla öz təsdiqini tapıb. Türbə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2006-cı ildə imzaladığı “Nuh Peyğəmbərin Naxçıvan şəhərindəki məzarüstü abidəsinin bərpa edilməsi haqqında” Sərəncama əsasən mükəmməl şəkildə bərpa edilib.



Naxçıvan Biznes Mərkəzində qonaqlara bildirilib ki, burada muxtar respublikanın istehsal və xidmət müəssisələri tərəfindən istehsal edilən məhsullar nümayiş olunur. Sahibkarlığa göstərilən diqqət və qayğının nəticəsində bu gün muxtar respublikada 382 növdə məhsul istehsal edilir. Bu məhsulların 126 növü ərzaq, 256 növü qeyri-ərzaq məhsullarıdır. 108-i ərzaq, 242-si qeyri-ərzaq olmaqla, 350 növdə məhsula olan tələbatın tamamilə yerli imkanlar hesabına ödənilməsi təmin edilib.

Türkiyəli jurnalistlər Naxçıvan Dövlət Televiziyasında da olublar. Məlumat verilib ki, müasir informasiya texnologiyalarının tətbiqi teleradio materiallarının keyfiyyətini xeyli yaxşılaşdırıb, muxtar respublikada rəqəmsal yayıma keçid təmin olunub, televiziyanın internet saytı yaradılıb, televiziyanın və radionun internet üzərindən canlı yayımı təmin edilib. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il fevralın 6-da “Naxçıvan Dövlət Teleradiosunun maddi-texniki bazasının möhkəmləndirilməsi və yaradıcılıq işinin təkmilləşdirilməsi ilə bağlı Tədbirlər Planı”nın təsdiq edilməsi barədə imzaladığı Sərəncamın icrası ilə əlaqədar muxtar respublikada ilk dəfə “Nuhçıxan” İnformasiya Agentliyi yaradılıb, agentliyin saytı istifadəyə verilib.

“Şərq qapısı” qəzeti redaksiyasına gələn qonaqlara qəzetin fəaliyyət istiqamətləri barədə ətraflı məlumat verilib. Qeyd olunub ki, bu gün Azərbaycanın ən qocaman mətbu orqanlarından olan “Şərq qapısı” qəzeti ötən 97 ildə muxtar respublikamızda baş vermiş siyasi, iqtisadi, sosial və mədəni hadisələrin davamlı, əhatəli salnaməsi kimi əhəmiyyətli mənbəyə çevrilib. Qəzet bir neçə nəsil üçün məktəb olub, Naxçıvanda jurnalist kadrların yetişməsində böyük rol oynayıb. Həftədə 5 gün dərc olunan “Şərq qapısı” qəzeti 2012-ci ildən fəaliyyət göstərən internet saytı vasitəsilə dünyada yaşayan bütün azərbaycanlılar tərəfindən oxunur.

Naxçıvan Dövlət Universitetində bildirilmişdir ki, ali təhsil ocağının çoxsaylı beynəlxalq əlaqələrində Türkiyənin əksər universitetləri ilə çoxşaxəli əməkdaşlıq əhəmiyyətli yer tutur. Buradakı Distant Təhsil Mərkəzi ilə tanışlıq zamanı qonaqlara məlumat verilmişdir ki, mərkəz istifadəyə verildikdən sonra bu ali təhsil ocağında distant formada təhsil almaq istəyən xarici tələbələrin sayı artmışdır. Media Mərkəzində fəaliyyət göstərən “Universitet” televiziyası və “Nuhçıxan” radiosunda və “Qeyrət” nəşriyyatında gənc jurnalistlər üçün yaradılan şərait maraqla qarşılanıb.

Türkiyənin Şərqi Anadolu Jurnalistləri Federasiyasının üzvü olan media qurumlarının nümayəndələrinə Duzdağ Fizioterapiya Mərkəzi haqqında da geniş məlumat verilib.

Muxtar respublikada səfərdə olan türkiyəli qonaqlar “Şərq qapısı” qəzetinə müsahibələrində səfər təəssüratlarını bölüşüblər.

***Firudin Fazil Özsoy – Şərqi Anadolu Jurnalistləri Federasiyasının sədri:*** – Əvvəlcə Naxçıvanla tanışlıqda bizə yaradılmış şəraitə görə minnətdarlığımı bildirirəm. Bu qədim Azərbaycan diyarına səfərimizin məqsədi Naxçıvanla tanışlıq və muxtar respublikanın kütləvi informasiya vasitələri ilə Türkiyənin Şərqi Anadolu vilayətində fəaliyyət göstərən media orqanları arasında əməkdaşlıq imkanlarını müzakirə etməkdir. Qeyd edim ki, “Bir millət, iki dövlət” olan Türkiyə və Azərbaycan arasında bütün sahələr kimi, kütləvi informasiya vasitələri arasında da əməkdaşlıq münasibətləri inkişaf etdirilməli, Şərqi Anadolu insanı Naxçıvanı, naxçıvanlılar isə Şərqi Anadolunu yaxından tanımalıdırlar. Düşünürəm ki, bu sahədə hər iki tərəfin böyük potensialı var. Eyni zamanda dərin tarixi, dini, mədəniyyət bağlılığımız var. Biz bütün bu imkanlardan yararlanaraq hər iki tərəfin zəngin mədəni-iqtisadi, turizm potensialını tanıda, ölkələrimiz arasındakı əməkdaşlığa yeni töhfə verə bilərik. İnanıram ki, bu məqsədlərimizə birgə nail olacağıq. Naxçıvanla bağlı onu demək istəyirəm ki, bu qədim Azərbaycan diyarı son illərdə böyük inkişaf yolu keçib. Şəhərin abad və rahat yolları, müasir binaları, bir-birindən gözəl küçə və prospektləri Naxçıvanın hərtərəfli inkişafının göstəricisidir. Ümid edirəm ki, hər iki tərəfin informasiya orqanlarının əməkdaşlığı Naxçıvanın hərtərəfli potensialının tanıdılmasında mühüm rol oynayacaq.



***Əli Er – Malatya Jurnalistləri Cəmiyyətinin sədri, “Son söz” qəzetinin təsisçisi:*** – Naxçıvan mənim uşaqlıq vaxtlarından adını eşitdiyim, lakin indiyədək heç zaman görmədiyim və ölkəmizlə birbaşa sərhədi olan qədim türk yurdudur. Bu diyarın qədim tarixə və mədəniyyətə malik olduğunu bilirdim. Bu gün isə bu zənginliyi öz gözlərimlə gördüm. Vaxtımızın az olmasına baxmayaraq, şəhərlə qısa da olsa, tanış olduq, burada keçirilən “Arıçılıq məhsulları – bal festivalı”nda iştirak etdik. Həqiqətən, Naxçıvanın tarixlə, mədəniyyətlə nəfəs alan bir şəhər olduğunu gördük. Şəhərin gözəlliyi isə insana ayrı bir zövq verir. Naxçıvanın təmizliyi, sakinlərinin qonaqpərvərliyi çox xoşumuza gəldi. Çalışacağam ki, bütün bu gördüklərimizi malatyalı oxucularımıza da çatdırım.



***Mücahit Özdəmir – Ərzincan Jurnalistləri Cəmiyyətinin sədr müavini, “Doğu” qəzetinin təsisçisi:*** – Mən də Naxçıvana ilk dəfədir ki, səfər edirəm. Azərbaycanın Türkiyə ilə qonşu olan bu qədim diyarında olmaq bizim üçün çox qürurvericidir. Ona görə ki, Naxçıvan türkün qədim tarixini özündə yaşadan bir diyardır. Şəhəri gəzərkən burada türk və İslam mədəniyyətinin incilərini yaşadan möhtəşəm tarixi abidələrlə tanış olduq. Məsələn, Möminə xatın türbəsi mənə çox ecazkar təsir bağışladı. Təəssüf ki, mənim yaşadığım bölgə aktiv seysmik zona olduğundan qədim dövrlərin yadigarları olan abidələrin çoxu zəlzələlər zamanı dağılaraq məhv olub. Ancaq Naxçıvan belə tarixi abidələri özündə yaşatmaqla bu mədəni zənginliyi hər kəsə təqdim etməyi bacarır. Bununla yanaşı, Naxçıvandakı təmizlik, yolların rahatlığı, yaşıllıqlar çox xoşuma gəldi. Düşünürəm ki, hər bir Türkiyə vətəndaşı Naxçıvanı daha yaxından tanımalıdır. Ümid edirəm ki, qarşılıqlı fəaliyyətimiz buna imkan verəcək.



**Xəbərlər şöbəsi**

# Babək rayonu 40:
## inkişaf və perspektivlər

*Müstəqil Azərbaycan dövlətinin xilaskarı, memarı və qurucusu ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə 1978-ci il oktyabr ayının 23-də yeni bir inzibati ərazi vahidi – Babək rayonu təşkil olundu. Bu rayonun Xalq qəhrəmanı Babəkin adını əbədiləşdirməklə təşkil edilməsi məhz dahi şəxsiyyət Heydər Əliyevin ideyası idi. Hələ Sovetlər Birliyi dönəmində bu addımın atılması Onun iradəsinin, qətiyyətinin, Naxçıvanın sosial-iqtisadi problemlərinin həllinə göstərdiyi diqqətin nümayişi idi. Həmin tarixi gündən artıq 40 il ötür. "Babək rayonunun təşkil olunmasının 40 illiyi haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin imzaladığı Sərəncam isə müstəqillik illərində rayonun inkişaf salnaməsinin yazılmasına şərait yaradan mühüm dövlət sənədidir.*



Bu il 40 illik yubileyini qeyd etdiyimiz Babək rayonu muxtar respublikanın əhalisi və ərazisinə görə böyük, neçə-neçə emal və sənaye müəssisəsinin mövcud olduğu, müasir görünüşü ilə diqqətçəkən bir yaşayış məntəqəsidir. Hər il Babək qəsəbəsi və ətraf kəndlərdə kompleks quruculuq işlərinin aparılması, yeni yaşayış və inzibati binaların inşa olunması, yol-nəqliyyat, rabitə infrastrukturu ilə bağlı layihələrin reallaşdırılması demoqrafik vəziyyətin artımına müsbət təsir göstərib. Statistik rəqəmlərə diqqət yetirsək, görərik ki, rayonun təşkil olunduğu 1978-ci ildə əhalinin sayı 43 min nəfər olmuşdursa, hazırda bu rəqəm 75 min 291 nəfərə çatıb.



Babək rayonu üçün əlamətdar olan 2018-ci ildə tikinti-quruculuq tədbirlərinin əhatə dairəsi genişlənib. Bu ilin yanvar-avqust aylarında rayonda əsas kapitala yönəldilmiş vəsaitin 45 milyon 20 min 600 manatı və ya 97,34 faizi tikinti-quraşdırma işlərinin payına düşüb. Babək rayonunun təşkil olunmasının 30 illiyi münasibətilə nəşr olunan tarixi-statistik məcmuədən əldə etdiyimiz məlumata görə, bu rəqəm 1997-ci ildə 140 min manat təşkil etmişdi. Hazırda Babək qəsəbəsində dövlət qurumlarının yerləşdiyi dördmərtəbəli inzibati bina yenidən qurulur, Elektrik Şəbəkəsi üçün yeni inzibati bina inşa olunur.



Babək rayonunda istehsal və sənaye sahələrinin inkişaf etdirilməsinə xüsusi diqqət yetirilir. Təkcə bu ilin yanvar-avqust aylarında rayonda 8 yeni istehsal sahəsi fəaliyyətə başlayıb. Müxtəlifprofilli olan bu emal müəssisələrində yeni iş yerləri açılıb, keyfiyyətli yerli məhsullar satış obyektlərinə təqdim olunub. Cari ildə rayonda 83 milyon 867 min 500 manat dəyərində sənaye məhsulu istehsal edilib.

Ötən dövr ərzində Babək rayonunda təhsilin maddi-texniki bazası gücləndirilib, yeni təhsil infrastrukturu formalaşdırılıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun himayəsi və qayğısı ilə bu gün rayondakı ümumtəhsil məktəblərinin böyük əksəriyyəti yeni binalarda yerləşir. Ötən il Payız və Gərməçataq, bu il isə Yuxarı və Aşağı Buzqov kənd məktəbləri əsaslı şəkildə yenidən qurulub. Yaradılan şəraitin nəticəsidir ki, 2017-2018-ci tədris ilində rayonun ümumtəhsil məktəblərini 538 şagird bitirib, onlardan 389 nəfəri ali məktəblərə sənəd təqdim edib, 272-si tələbə adını qazanıb. Məzunlardan 35 nəfər 500-700 intervalında bal toplayıb. Babək rayonu üzrə 6 şagird Heydər Əliyev adına Hərbi Liseyə, 50-si isə orta ixtisas məktəblərinə qəbul olub. Ötən dövr ərzində rayonda səhiyyə və mədəniyyət sahəsində əsaslı dönüş yaradılıb. Bu gün rayon əhalisinə 1 Mərkəzi, 2 kənd sahə xəstəxanası, 13 ambulatoriya və 18 feldşer-mama məntəqəsi tibbi xidmət göstərir. Müstəqillik illərində çoxsaylı kitabxana, klub, uşaq musiqi məktəbləri, tarix və mədəniyyətimizi, eləcə də görkəmli şəxsiyyətlərin həyat və yaradıcılığından bəhs edən müxtəlifprofilli muzeylər fəaliyyətə başlayıb. Bu ilin aprel ayında rayonun Nehrəm kəndində İmamzadə türbəsinin yenidənqurmadan sonra istifadəyə verilməsi tarixi-mədəni irsə muxtar respublika rəhbərinin göstərdiyi həssas münasibəti ifadə edir.

Aqrar rayon olan Babəkdə kənd təsərrüfatının dinamik inkişafı ilə bağlı həyata keçirilən tədbirlər – torpaqların əhalinin şəxsi mülkiyyətinə verilməsi, mütərəqqi əkin və suvarma sistemlərindən istifadə, subsidiyaların ayrılması, sahibkarlara güzəştli şərtlərlə texnika və texnoloji avadanlıqların, gübrələrin verilməsi bu sahədə yeni bir eranın başlanğıcı olub, kəndlinin bir zamanlar xəyal hesab etdiyi arzular reallığa çevrilib. Məlumat üçün deyək ki, 2018-ci ilin məhsulu üçün rayonda 16 min 172 hektar sahədə əkin aparılıb ki, bunun da 10 min 526 hektarını taxıl təşkil edir. Bu göstərici ötən əsrin sonlarında – məlum hadisələr dövründə 2 dəfə az – 5 min 159 hektar olmuşdu. Bu il sahələrdən 33 min 275 ton məhsul tədarük edən babəkli sahibkarlar bostan-tərəvəz bitkilərindən də mövsümdə xeyli gəlir əldə ediblər. Torpaq mülkiyyətçiləri bu il 153 hektara noxud, 478 hektara kartof, 2094 hektara tərəvəz, 1512 hektara bostan bitkiləri əkiblər.

Qurulub-yaradılanlar rayon ictimaiyyəti tərəfindən minnətdarlıqla qarşılanır. Babək qəsəbə sakini Ənvər Hüseynov rayonun təşkil olunduğu günləri belə nəql edir: "Yaxşı xatirimdədir, rayon təşkil olunan zaman mərkəz sayılan Babək qəsəbəsi balaca bir kənd idi. Buranın nə zamansa böyüyüb abadlaşacağına və ən nəhayət, bu cür abad bir rayon mərkəzinə çevriləcəyinə o zaman heç kim inanmırdı. O illərdə qəsəbədə bir məktəb, bir mağaza və bir də icra nümayəndəliyindən başqa heç bir tikili yox idi. Təsəvvür edin ki, 640 yerlik tam orta məktəb binasında həm rayon partiya və icraiyyə komitəsi, həm də mədəniyyət, maliyyə və təhsil şöbələri yerləşirdi. Bax belə bir çətin şəraitdə Babək rayonu təşkil olundu və zamanla təşəkkül tapmağa başladı.

Ötən günlərdə muxtar respublika rəhbərinin iştirakı ilə yeni yaşayış binası, məscid və mərasim evi istifadəyə verildi. Deməli, rayonda daha 28 gənc ailənin mənzil-məişət şəraiti yaxşılaşdırılacaq. Onu da qeyd edim ki, qəsəbəmizdə indiyədək mərasim evi olmayıb. Yeni bina imkan verəcək ki, sakinlər yas mərasimlərinin təşkili zamanı vaxt itkisinə və izafi xərclərə yol verməsinlər. Qəsəbə məscidinin yenidən qurulması isə milli-mənəvi dəyərlərə göstərilən həssas münasibətin təzahürüdür. Bu işlər həm də rayonun təşkil olunmasının 40 illiyinə dəyərli töhfədir".







Yuxarı Buzqov kənd sakini Vahid Şahverdiyev: "Zamanında ulu öndər Heydər Əliyevin ətrafında sıx birləşməklə muxtar respublikanı erməni işğalından qoruya bildik. Güllə səsi ilə yatıb-qalxdığım Yuxarı Buzqovda indi güllər açıb. Rayonumuzun təşkil olunmasının 40 illiyi ilə bağlı sərəncamın tədbirlər planına uyğun olaraq Aşağı və Yuxarı Buzqov kəndlərində də kompleks quruculuq işləri aparılıb, məktəb binaları yenidən qurulub, kənd və xidmət mərkəzləri tikilib, içməli su xətti çəkilib, yollara asfalt örtük verilib, Buzqov çayı üzərində yeni körpü salınıb. Vallah, bu işləri görən zaman ürəyim dağa dönür. Hər kəs bilir ki, yol çəkmək nə qədər çətin və xərc tələb edən bir işdir. Amma müstəqil Azərbaycan dövləti bizim bu qayğımızı da çəkib. Bu sərhəd kəndləri həm də Babək rayonunun zəngin turizm potensialına malik yaşayış məntəqələridir. Hər yay qonaqlı-qaralı oluruq. Bura gəlib-gedənlər kəndlərimizin müasir inkişafı ilə yaxından tanış olacaqlar".






*Ulu öndərin istəyindən, dəstəyindən, əməyindən yaranan Babək rayonu 40 illik yubileyinə uğurlu sosial-iqtisadi inkişaf göstəriciləri ilə hazırlaşır. Dahi şəxsiyyətin bu böyük rayonla bağlı arzuları məhz müstəqillik illərində gerçəkləşdi. Bir sözlə, Babək rayonu Heydər Əliyev quruculuq xəttindən bəhrələnərək coşqun inkişaf və tərəqqi dövrünü yaşayır.*

**Muxtar RZAZADƏ**
**"Şərqin səhəri" qəzetinin redaktoru**

ŞƏRQ qapısı

Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Səbuhi Həsənov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1490. Sifariş № 773